# ALMANI ATDIM XARALA




Almanı atdım xarala,
Qaldı sarala-sarala!
Dağlarda döndün marala,
Ay tirmə köynək,
Ay sarı çəpkən,
Gəlin, haralısan?
Özü göyçək, sözü göyçək,
Hara maralısan?

Yarın bağında üzüm əsgəri,
Bağın dalından həzin səs gəlir,
Sağ ol, gəl, var ol, gəl,
Bir gecə mehman ol, gəl.

Gəlin gedək bizim bağa,
Hərə çıxaq bir budağa.
Ləb-ləbə, dodaq-dodağa,
Ay tirmə köynək,
Ay sarı çəpkən,
Gəlin, haralısan?
Özü göyçək, sözü göyçək,
Hara maralısan?

Yarın bağında üzüm əsgəri,
Bağın dalından həzin səs gəlir,
Sağ ol, gəl, var ol, gəl,
Bir gecə mehman ol, gəl.